# Kredo

TARİX İNSANIN ƏQİDƏ VƏ İNAM UĞRUNDA MÜBARİZƏSİDİR!

Müstəqil ictimai-siyasi, publisistik qəzet | № 21 (1101) 26 may 2022-ci il | Qiyməti 1 manat | Qəzet 1999-cu ilin oktyabrından çıxır

# ƏJDƏR YUNUS RZA - 70

## HƏSRƏT YANĞILARI, VÜSAL DUYĞULARI

*Hörmətli Əjdər Yunus Rza, bir vaxtlar ilk dəfə "Bulaq" adlı şeirinlə oxucu qarşısına çıxsan da, sonralar yazdığın şeirlərin dənizə qovuşmağa can atan çaylar kimi səni ədəbi aləmə qovuşdurub. İndiyə kimi xeyli sayda kitabların nəşr olunub, şeirlərin ölkəmizin sədlərini də aşıb keçərək səni yaxın-uzaq ölkələrdə ən istedadlı və ən məhsuldar bir şair qismində tanıdıb. Mən ata elimizi, cənnət timsallı Qarabağımızı 28 il ərzində misra-misra ağlayanda, sən şeir-şeir sızlamısan! Sən təpədən-dırnağa vətənpərvər bir söz əhlisən, alim-şair Əjdər Yunus Rza, ehtiyatda olan cənab polis polkovniki Əjdər Yunusov!*

**İsmayıl İMANZADƏ**

*Əjdər Yunus Rza, səni mən də ürəkdən təbrik edirəm. Bizi həm qohumluq, həm də dostluq telləri birləşdirir. Sən gözəl insan, gözəl şair və gözəl də dostsan. Allah səni arzuların sarıdan razı salsın. İsmayıl İmanzadənin sənin həyat yoluna işıq tutan yazısını mən çox diqqətlə oxudum və belə qənaətə gəldim ki, bu yazı Əjdər müəllimi tanımayanlara tanıtmaq üçün çox mühüm bir sənəddir.*

**Şamil ƏHMƏDLİ**

*İsmayıl İmanzadə, çox səmimi qeydlərinlə bir şairin bir dostun, nəhayət hamımıza doğma olan bir insanın təbiətinə güzgü tutmusan...*

*Şamil Əhmədlinin məntiqi məni çox razı saldı... Sənətkar doğru deyir; dəyərli söz çox qiymətli sənəddir... xüsusilə ustad dilindən səslənirsə... 70 il yaşamaq... bu bir ömürdür... amma həyatını söz odunda yandıranlar üçün bu iki ömürdən də çoxdur...Təbriklərimiz, quş qanadlı diləklərimiz həsrət yanğıları, vüsal duyğuları arasında yaşayan şair Əjdər Yunus Rzaya uğur qaynağı olsun...*

**Əli Rza XƏLƏFLİ**



Sözə tərəf getməyi, sözə çatmağı, sözün ruhuna qovuşmağı dünyanın ən göynəmli yanğısı bilirəm. Elə bilirəm ki, söz göy üzündən yerə düşmüş odlu komet parçasıdır, yanan meteordur. Bilirəm ki, yaxına getsəm, yandırar. Nəfəs çəksəm, odu, alovu sinəmə dolar, istisi məni ütər, hərarəti canıma od qoyar. Amma hansısa bir hissin təsiri ilə sözə yön tutmaq istəyimin qarşısını heç nə kəsə bilmir.

Yəqin ki, şairlərin yanğısına şərik olmaq istəyidir elə məni sözə tərəf çəkən. Həm də mənə elə gəlir ki, bütün şairlər hamısı bir varlığın zərrələridir. Bəlkə elə bu səbəbdən məndən çox uzaqda, lap elə hər vaxt yanımda olan - dəxli yoxdur, şairlə aramda məsafə görmürəm. Onu elə öz varlığımda hiss edirəm.

Əjdər Yunus Rzanın 70 yaşı olur. Hələ 50 il bundan əvvəl Əjdərin ilk şeirlərini, romantik duyğulanmalarını, xüsusilə təbiət lövhələrini oxuyan çağlarından onun sözünə söz demək istəyində olmuşam. Axı hissləri, müşahidələri çox doğmadır. Bir kənddə, həm də elə bir mühitdə doğulub böyümüşük. Uşaqlıq çağlarımızın xatirələri də şərikdir. Atalarımız tərəkəmə həyatı yaşayıb. Aralarında da dostluq, doğmalıq olub. Bəlkə elə bu səbəbdən hər dəfə Əjdəri görəndə yaddaşımda oyanan uşaqlıq çağlarının xatirələri atalarımızı da qaytarıb zamanına gətirir. Onların üz-üzə, göz-gözə dayanıb açıq alınla, doğmalıq duyğuları ilə söhbətləri də hətta bəzən ən kiçik təfərrüatlarına qədər yaddaşımda canlanır.

Xələfli kəndində 8 illik təhsilimizi başa vurandan sonra, əgər belə demək mümkünsə, hər kəs öz taleyinin arxasınca getdi. Əjdər orta məktəbi Şükürbəyli kəndində bitirməli oldu. Mənsə Cəbrayıl şəhərindəki Qorki adına məktəbdə oxudum. Daha sonra tələbəlik dövrü gəldi. Yataqxanada bir mərtəbə bizdən aşağıda olurdu. Hərdən o bizim otağa gəlirdi, hərdən də olurdu ki, mən gedirdim. Aramızda mübahisələr də olurdu. Şükürbəyli məktəbi ilə Cəbrayılın Qorki adına məktəbini müqayisə edirdik. Hərə öz müəllimini, öz məktəbini daha üstün tuturdu. Hətta bir dəfə mübahisəni kəsmək üçün üstünlüyə belə bir don da verdim; bizim məktəbin müəllimləri daha hündür boy idi. Əlbəttə, bu bir zarafat idi. Amma həyat göstərdi ki, Əjdər Şükürbəyli məktəbində baza təhsilini qədərincə ala bilib. Pedoqoji İnstitutun Tarix fakültəsini fərqlənmə ilə bitirdi. İlk şeirləri də "Gənc müəllim" qəzetində, sonra Cəbrayılda çıxan "Kolxozçu" qəzetində dərc olunurdu.

Doğrusu, mən elə bilirdim ki, Əjdər poeziyada gənc yaşlarından parlayacaq. Amma elmə həvəs, tarixi tədqiqatlar onu poeziyadan bir qədər təcrid elədi. Aspiranturanı uğurla bitirdi. Tədqiqatını sona çatdırdı, müdafiə elədi və kəndimizin ilk alimləri sırasında hörmətli yer tutdu.

Əjdərin böyük qardaşı Məcnun polis orqanlarında zabit kimi fəaliyyətə başlamışdı. Çox uğurla rütbə, vəzifə pillələri keçirdi. Formanın zabitəsi, polis işinin cazibəsi Əjdəri də çəkdi. O, Polis Akademiyasına işə dəvət olundu. Akademiyanın rəis müavini, kafedra müdiri vəzifələrini də uğurla daşıdı.

Doğrudur, Əjdərlə poeziya arasında həyatın bu enişli, yoxuşlu yolları ola bilsin ki, müəyyən maneələr yaratdı. Poetik əsərlərinin yazılmasına isə bu maneələr qadağa qoya bilmədi.

Dağlarda qayaların arasından sızan bulaqlar görmüşəm. Həzin-həzin gurlaşıb axarını dağıtmasa da, suyu azalmayan bu bulaqlar saflığı, duruluğu ilə sinəsi yanğı çəkənlərin dodaqlarını öpüşlərə qərq edib. Düşünürəm ki, Əjdərin poetik yaradıcılığında o bulaqların duruluğuna bənzərlik, sinəsində yanğı olanları özünə tərəf çəkən sehirli bir cazibə də var.

Bəlkə elə bu səbəbdəndir ki, Əjdər ədəbi məclislərdə oxuduğu şeirlərlə ətrafın diqqətini səfərbər edə bilir. Rəvanlıq, axıcılıq, xüsusilə təbdən gələn poetik nəfəs onun bir şair kimliyinə qədərincə işıq tuta bilir.

Bəlkə elə bu səbəbdəndir ki, onun şeirləri mətbuat vasitəsi ilə yayılmaqdan çox dinləyicilərin istəkləri ilə, sevgiləri ilə daha çox ürəklərə yol tapıb. Görkəmli tənqidçi Vaqif Yusifli onu daha çox ovqat şairi adlandırır. Bəlkə də şairliyin elə birinci şərti ovqatdan asılılıqdır. Əjdər də ovqatın gətirdiyi hava ilə nəfəs aldığından, ovqatın tələbi ilə duyğularını sözə gətirdiyindən onun şeirləri daha çox həyatidir. Xüsusilə onun şeirlərini oxuyanların çoxundan eşitmişəm ki, elə bil mənim duyğularımı yazıb. Elə bil bu şeiri mən yazmışam, elə bil bu şeiri mən deyirəm... Bunlar sözdən təsirlənən, sözdən duyğulanan insanların etiraflarıdır və heç şübhəsiz, bu səmimi etiraflar şeirin insan qəlbinin tellərinə toxunması ilə dilə gəlir. Görkəmli tənqidçi doğru deyir: *"Qaçqınlığın, köçkünlüyün ağrı-acılarından yazanda, dünyanın gedişindən narazılığını ifadə edəndə onu anlayırıq. Bəlkə hamımızın ürəyindən keçənləri bir az sərt, bir daha çılğın ifadə edir, ya da şikayətlər, gileylər eşidirik"*. Axı həyatın bir üzü kədərdirsə, bir üzü də sevincdir. Demək, Əjdər kədəri görürsə, sevinci də görür. Həm də söhbət təkcə Əjdərdən getmir, ümumiyyətlə, şairlədən gedir. Həyatın rənglərini, yəni ağını, qarasını - bütövlükdə həyatın harmoniyasını duya bilən şair artıq cəmiyyətə, insanlara borclu qala bilməz. Əgər belə demək mümkünsə, şair həyatın içindədirsə, şair həyata yaxındırsa, onun yazdıqları da həyatı yaşayan, həyatı duyan insanların taleyindən kənarda deyil. V.Q.Belinski təsadüfi yazmırdı: *"...Şair nə qədər yüksək olursa, içərisində doğulduğu cəmiyyətə bir o qədər çox məxsus olur, onun istedadının inkişafı, istiqaməti və hətta xarakteri cəmiyyətin tarixi inkişafı ilə bir qədər daha sıx bağlanır"*. Mütəfəkkir, inqilabi ruhlu tənqidçinin düşüncəsindən gələn ifadənin başlanğıcına diqqət edək. "Şair nə qədər yüksək olursa" şərti maraqlı mahiyyət kəsb edir. Zənnimcə, elə bu şərti "şair nə qədər həyata yaxın olursa kimi" də ifadə etmək olar. Bax burada şair Əjdər Yunusun yaradıcılıq sirri açılır, yəni o, bütün hissləri ilə, duyğuları ilə həyata yaxındır. Əks təqdirdə, o, oxucularının (həm də dinləyicilərinin) bu qədər yüksək dərəcədə rəğbətini qazana bilməzdi. Demək, şair Əjdər Yunus Rzanın yaşadığı cəmiyyətin işıqlı və qaranlıq tərəfləri, müasiri olan insanların sevincləri və kədərləri, düşüncələri ilə razılaşdığı və razılaşmadığı tərəfləri - bütün bunlar onun üçün ilham qaynağı olub. Yazmaq, yaratmaq insan təbiətinin həyata sevgisi ilə bağlı hissdir. Təsadüfi deyil ki, özü də elə bunu deyir:

Unutma sən, ay sirdaşım, qələmim,
Ürəyimdən keçənləri yazmadım.
Ordan-burdan şəklin çəkib aləmin,
Müsibəti çəkənləri yazmadım...

Qınamasın kimsə məni bu halda,
Çox itirdik qaça-qaçda, bu qalda,
Əkin vaxtı vaxt keçirib daldada,
Biçin vaxtı biçənləri yazmadım...

*(Davamı 8-ci səhifədə)*

## Əjdər Yunus Rza – 70

# HƏSRƏT YANĞILARI, VÜSAL DUYĞULARI

*(Əvvəli 1-ci səhifədə)*

Çox dəhşətli etiraflardır. Bir insanın həyatını faciəyə döndərən etiraflardır. İndi gör şairin həyatını oda bükürsə, yandırıb-yaxırsa, necə betər etirafdır.

"Yazmadım" deyir şair. Amma əslində bu misralar, yazıya gələn bəndlər şairin nəyi yazıb, nəyi yazmadığını da üzə çıxarır. Onun hansı hisslərlə yaşadığını da bütün acılıqları ilə göstərmək gücündə olur.

Nə demək olar? Onsuz da şairin ürəyində təbi ilə, istedadı ilə, şairlik qisməti ilə sancılmış bir tikan var. Əslində şair demək istəyir ki, ürəyimdəki tikanı çıxara bilmədim. Zənnimcə, şairlər ürəklərindəki tikanı çıxara bilməməkdən həmişə gileylidirlər. Amma hər uğurlu şeirin ürəyə sancılmış bir tikanın çıxarılması kimi bir sonluq düşünsək, Əjdərin də cəmiyyətimiz üçün "yazmadım" sözünə ittihamımız olmaz. Əjdər nə qədər cəmiyyətlə, nə qədər insanların təbiəti, dünyası ilə bağlı olsa da, çox vaxt öz hisslərini bulaqla (təsadüfi deyil ki, Əjdərin ilk mətbu şeiri "Bulaq"dır), dağlarla, bənövşə ilə, çayçiçəyi ilə, kəklikotu ilə, dağ cığırları ilə, dumanla, çiskinlə, şehli çəmənlərlə... ifadə edir. Onu da deyim ki, uşaqlıq çağlarımızda ayaqyalın, dizi açıq yaylaq çöllüyündə o şehlərə birgə baxmışıq. O cığırların nə demək olduğunu, hansı əvəlikli bulağa apardığını... bütün bunların hamısını görmüşük. Zənnimcə, Əjdərin yaddaşında həmin hisslər, duyğular o qələmi götürən kimi üzə çıxır. Və yəqin ki, təbii şəkildə söz olur:

*Nə ola, a gülüm, təzədən yenə,*
*Tutam əllərindən çıxam dağlara.*
*Üzüldüm uzaqdan boylanmağımdan,*
*Yaxından doyunca baxım dağlara.*

*Görən doğrudanmı taleyim budur,*
*Görmək qismətimmi, o doğma yurdu?*
*İçimdə həsrətin alovu, odu,*
*Alışam şimşəktək çaxam dağlara.*

*Hey düşür yadıma o doğma yerim,*
*O doğma ocağım, o Xələf pirim.*
*Ay Əjdər, gedim mən, halallıq verim,*
*Nə qədər ki, hələ sağam dağlara.*

Sağ ol, ay Əjdər, sağ ol, ay şair. Elə hamımızın əvəzindən deyirsən. O dağlara getmək üçün həsrət çəkənlərin hamısının əvəzindən deyirsən. Bax həyata doğma olmaq, yaxın olmaq elə bilirəm ki, elə budur. Bilmirəm, bir şairi yazmaq üçün dildə olan sözlərin hansı daha çox kara gəlir, amma elə düşünürəm ki, Əjdər Yunus Rzanın şair taleyini yazmaq üçün sözlərin ən qatı rənglərindən istifadə etmək lazımdır. Ən sərt, ən qatı rənglər insan hisslərinin mahiyyətinə varmaq imkanı verir. Əjdər missiya etibarı ilə şair olduğunu yaxşı bilir. Şairin hansı dərdi, hansı ağrını çəkdiyini də yaxşı bilir. Xüsusilə sözə yaxın olduqca onun yandırıcılıq gücünü də öz varlığında qədərincə duyur. Yəqin ki, bu hissləri, bu duyğuları həyatının, düşüncəsinin məramı, kredosu bildiyindən elə belə yazır:

*Mən şairəm, insanlığın dərdini,*
*Mən hamıdan çox çəkirəm, biləsən.*
*İnsan aşır insafsızlıq həddini,*
*Nə qazanır, bu gedişlə görəsən?*
*Xeyir şərlə dayanıbdı üz-üzə,*
*Şər-şəbəkə çoxluğundan qorxuram.*
*Az qalıbdı, insan haqdan əl üzə,*
*Qanunların "yoxluğundan" qorxuram.*

Bu bəndlərdən alınan hiss, duyğu nə deyir. Zənnimcə, birinci bunu deyir ki, şair dünya ilə, cəmiyyətlə savaşdadır. Həyatın ağrı-acısını, dərdini nə qədər bölüşmək istəsə belə bu dərdi, ağrı-acını yaradan mühitlə barışmaq da istəmir. Yaxşı eləyir. Şairliyin elə birinci missiyası odur ki, o, dağılmış nizamı düzənləsin, həyatla, cəmiyyətlə, insanlarla ona görə cəngi-cidala çıxır ki, haqqı, ədaləti bərpa eləsin. Yəqin ki, onun ritorik qorxaqlığının səbəbi də elə budur.

Əjdər təbiət etibarı ilə humanistdir, insanpərvərdir. Amma həm də yeri gələndə sərtdir. Özünə qarşı hər hansı bir haqsızlığı qətiyyən bağışlamaq fikrində deyil və yaxud da çox çətin bağışlayır.

Burada bir etiraf da mən etmək istəyirəm. Axı mən dedim ki, 50 il bundan əvvəl Əjdər haqqında yazmaq istəyirdim. Və bu 50 ilin elə bir Əjdər şeiri ilə qarşılaşdığım məqamı olmayıb ki, bu istəyimi xatırlamayım. Və Əjdər də bunu hiss edib, bilib. Gileylərinin də elə bu səbəbdən əsaslı olduğunu ağrılı hisslərlə qəbul edirəm. Arada gəzən sözbazların Əjdərin hisslərindən istifadə etməklə suyu bir az bulandırmaqları mənim ona, yəni sənətkar təbiətinə olan sevgimin sözə çevrilməsinin qarşısında əngələ çevrilib.

Bütün bunların, əlbəttə, ədəbiyyata dəxli yoxdur. Ədəbiyyat elə bir fenomendir ki, o, qərəzi, kini, həsədi qəbul etmir. Amma qibtə üçün ədəbiyyatda yol İslamdakı tövbə qapısına bərabərdir. Əjdər yaş etibarı ilə bir il məndən əvvəl dünyaya gəlib. Bir az da dəqiqləşdirsək, bir il on ay. Mən deməzdim ki, bu bir il on ay bizim aramızda kəskin düşüncə fərqi yaradıb. Amma, əlbəttə, tələbəlik dövründən başlayaraq müxtəlif mühitlərdə böyüməyimiz, müxtəlif şəraitlərdə sözlə pərvəriş tapmağımız, şübhəsiz, estetik görüşlərimizdə də özünü göstərib. Amma bu fərq görüşləri düşüncələrimiz arasında təzad yaratmayıb. Yəni aramızda uçurum olmayıb. Çünki mənəvi kriteriyalar, tarixi taleyə münasibət, milli hisslər, vətən duyğuları, yurd həsrətləri, hətta şerikli uşaqlıq xatirələri bizi birləşdirən tərəflərdir. Zənnimcə, elə məni bu yazıya gətirən də bu cəhətlərdir.

Düşünürəm ki, Əjdər yağıya müraciət edərək nə deyirsə, elə mənim əvəzimdən deyir:

*Bağımı, bağçamı viranə qoydun,*
*Dönüb goreşənə gorumu oydun,*
*Yurdumu taladın, evimi soydun,*
*Qurumu yandırdın, o yaşa dəymə.*
*Anamın sac altı o daşa dəymə.*

*O daşda anamın əlinin izi,*
*O daşda bişirib, yedirdi bizi,*
*Çoxdan qaralsa da, sönsə də közü,*
*Üstündə his qatı o daşa dəymə,*
*Anamın sac altı o daşa dəymə.*

Bu şeirdə müasir yanaşma ilə obraz axtaranlara deyərdim ki, özünüzü incitməyin və şairi də ittiham etməyin. Şair öz sözünü hədəfə birbaşa deyir, açıq deyir. Əgər belə demək mümkünsə, örtülü obrazlarsız deyir. Hər halda yanğı ilə deyir, dərdlə deyir, içimdən gələn hisslə, duyğu ilə deyir. Hətta yeri gələndə o öz qələm dostlarını da ittiham edir:

*Dar gündə elini saya salmayan,*
*Bacıya, qardaşa hayan olmayan,*
*Yetimin halını xəbər almayan,*
*Nə xeyiri, ha yazsın dağlarda çəndən?*
*İncimə, ay şair, incimə məndən.*

*Səni doğduğuna peşmansa, anan,*
*Sən hardan olarsan elinə yanan?*
*Şair deyəmmirəm mən sənə inan,*
*Bu ad çox-çox uzaq, kənardır səndən,*
*İncimə, ay şair, incimə məndən.*

*Yazdığın boğazdan yuxarı sözdür,*
*Yalançı təriflər qar üstdə izdir...*
*Minlərlə mükafat, yüz titul gəzdir,*
*Kimliyin görünür uzaqdan, gendən,*
*İncimə, ay şair, incimə məndən.*




Bu şeiri bilərəkdən bütöv verdim. Bəlkə şairin ittiham etdiyi qələm dostunu qədərincə ifşa etməyib və yaxud obyektiv ola bilməyib. Amma hər halda öz qələm dostuna bu hissləri ötəri külək təsiri ilə olsa da, öz içindən keçirib. Əgər o, qələm dostunda bu kəm-kəsirləri görürsə, demək, özündə də görür. Axı şair öz hisslərini, öz təbiətini yazırsa, şairdir. Bu mənada, ölkədə baş verən korrupsiyada, oğurluqda, saxtakarlıqda, lap elə vətənin başına gələn bəlalarda kimin nə dərəcədə günahı varsa, onun hamısına şairlər də şərikdir. Axı mən nə üçün ilk savaşda həlak olmamışam? Axı sən nə üçün ilk savaşda çox uzaqlardan dayanıb baxmısan? Bir sözlə, şair ittihamlarında haqlıdır. O başqa məsələdir ki, hansı subyektiv hisslər obyektiv hissləri üstələyir.

Onu demək istəyərdim ki, Əjdər Yunus Rza lirikasında çox kövrəkdir. Həyatın hansısa bir təzadı ilə barışmayanda bu kövrəklik sərtliklə əvəz olunur.

Əjdər Yunus Rzanın "Həsrətlə vüsalın arasındayam" (2022) kitabı əslinə qalsa, onun indiki həyatının təzadlarını əks etdirir. Elə bil ki, bir rəssam ömrünün 70 yaşındakı çağının portretini çəkir. Bu portretdə göz oxşayan, könül açan rənglər də var. Kədər gətirən, sevinci dumana bükən rənglər də gizlində deyil. Hər halda şair "həsrətlə vüsalın arasındayam" deyərkən elə bu təzadları nəzərdə tutur. Yaxşı olardı ki, heç şair bu qərinəlik zamanın həsrətini varlığında daşımayaydı. Söhbət təkcə şairdən getmir, həm də onun mənsub olduğu xalqdan, sahibi olduğu vətəndən gedir.

Bu illər, yəni həsrət bitib vüsala gələnəcən şairin varlığından nələri aparıb? Hərəkətlərindəki çəldlik gedib, sözündən od, alov aparıb, cisminə ağrılar qoyub gedib, düşüncəsinə kədər notları yazıb gedib. Neyləmək olar? Zamanla savaşmaq heç Allahın özünə də müyəssər deyil. Bu mənada onun təəssüfləri, zənnimcə, yerindədir:

*Nalə çəkib ağı deyən,*
*Bayatılı sözüm getdi.*
*İndiyəcən əyilməyən,*
*Güvəndiyim dizim getdi.*

*Yox hayıma qulaq asan,*
*Düşmənimdir görüb susan,*
*Quzeylərdə alaq basan,*
*Cığırlarım, izim getdi.*

*Qürbət məni əyə-əyə,*
*Döndəribdir fağır keyə,*
*Əjdər, yurdum deyə-deyə*
*Ağlamaqdan gözüm getdi.*

Təəssüflər açıq-aşkar duyulur. Şairi heç qınamağa da dəyməz. Axı bir də təzədən necə yaşayasan? Axı ömrümüzdən oğurlanmış illəri necə geri qaytarasan? Bu mümkün deyil, zaman keçdikcə insan da zamanın axarı ilə axmağındadır. İnsan ömrü selə, suya bənzəyərdi təkcə izi qalmasaydı.

İnsanın izi nədir? Filosoflar deyirlər ki, insanın genini daşıyan varislər onun izi deyil. Hər kəsin özünün düşüncəsindən gələn nə varsa, cəmiyyətdən yaşarlıq haqqı alırsa, odur insanın izi.

İnsan təbiət etibarı ilə həyatsevərdir. İnsan təbiət etibarı ilə xeyirxahdır. İnsan təbiət etibarı ilə paxıllığından, bədxahlığından, qara rənglərindən xilas olmaq istəyində olan məxluqdur. Axı insanın düşüncəsi var. Əjdər Yunus Rzanın yaradıcılığı boyu (O, 14 poeziya kitabının müəllifir) yaratdıqlarının hamısında insanı ucalığa səsləyiş var. Şairin məramını, təbiətini bu xeyirxah notlardan kənarda necə təsəvvür etmək olar.

Şair nə qədər təzadlar içində qovrulsa da, o, təbiət etibarı ilə son nəticədə ulu yaradandan aldığı hissin təsiri ilə mənəvi saflıq mərtəbəsinə qalxa bilir. Əjdər Yunus Rzanın həm yaradıcılığında, həm də yaşının indiki çağında onun təbiətinin keyfiyyət dəyişmələrini müşahidə etmək mümkündür.

Hər bir qələm adamı üçün görkəmli alim, yazıçı Elçin Mehrəliyevin təbirincə desək, iki böyük ilham qaynağı var. Birincisi, təbiətdir, ikincisi də elə insanın özüdür. Əlbəttə, kamil insan, uca insan, varlığı ilə cəmiyyətə xeyirlər bəxş etməyə cəhd edən insan ilham mənbəyi ola bilər. Təbiətdə isə təzad axtarmaq yersizdir. Çünki təbiətdə uçurumlar da, sarsıntılar da, kataklizmlər də, qeyri-adi mənzərələr də, bütün ekzotik görkəmlər də ilham mənbəyi olaraq qalır. Əjdər üçün əsirlikdə olan bir bənövşə də ilham mənbəyidir. Elə ona görə də deyir ki, dərənin ki, yoxdur səni, niyə açdın, ay bənövşə? Bundan ritorik, bundan üstün yurdun işğalda, əsarətdə olduğunu diqqətə, yaddaşa çəkmək üçün daha hansı sərtlik gərəkdir?

***(Davamı 9-cu səhifədə)***

# HƏSRƏT YANĞILARI, VÜSAL DUYĞULARI

*(Əvvəli 8-ci səhifədə)*

Əjdər Yunus Rza bütün yaradıcılığı ilə təbiət və insan arasında vurnuxmaları ilə şairdir. Təsadüfi deyil ki, elə sonuncu kitabını da "Həsrətlə vüsalın arasındayam" adı ilə təqdim edir.

Əjdər Yunus Rzanın "Həsrətlə vüsalın arasındayam" kitabında son yeddi-səkkiz ilin şeirləri cəmlənib, hətta şeirləri mövzusuna görə də ayırmır. İllərin xronolji ardıcıllığı ilə verir. Bu da onu göstərir ki, o sanki öz tərcümeyi-halını yazır. Hansı gün hansı ovqatda olub, onu yazır.

Əjdərin yaradıcılığında son vaxtlar qələmə aldığı "Qarabağnamə" adlı poeması ayrıca bir mərhələ təşkil edir.

"Qarabağnamə"lərin Azərbaycan ədəbi tarixində kifayət qədər zəngin keçmişi var. "Qarabağnamə"lərin əvvəlki təsviri publisistika, tarixi təsvirlə başlayıb. Sonralar "Qarabağnamə"lər poeziyada öz əksini tapıb, poetik təsvirlə üzə çıxıb. Hətta Seyid Nigarinin məşhur "Qarabağnamə"si də "Qarabağnamə"lərin ən dəyərli səhifələridir. Daha sonralar "Qarabağnamə"lər tarixi tədqiqatlarla yeni mahiyyət kəsb edib. Nəhayət, "Qarabağnamə"lərin fon, forma, janr müxtəlifliyi özünü dramaturgiyada, nəsrdə göstərib. Və bu gün də fəal "Qarabağnamə"lər yeni poetik müstəvidə üzə çıxmaqdadır. Əjdər Yunus Rzanın "Qarabağnamə" poeması da bu yöndən çox dəyərlidir. Onun son dövrdə təqdir olunan "Qarabağnamə"sindən 3 bəndi xatırlatmaq yerinə düşər:

*Burdan hayqırıram bütün dünyaya,*
*Qarabağ mənimdir, mənim olacaq.*
*Nə qədər olsa da, o böhtan, yalan,*
*Həqiqət yol tapıb yerin alacaq!*

*Qarabağ yurdumun taxtı, tacıdır,*
*Gözləmə kimsə veriləcəkdir...*
*Həqiqət çox da ki, min qat acıdır,*
*Ya tezi, ya geci yeyiləcəkdir.*

*Mənim tariximdir, mənim şərəfim,*
*Soyumun, kökümün yurdu Qarabağ.*
*Kim gəlir, gəlsin boyun əymədi,*
*Tufanlar önündə durdu Qarabağ.*

Qarabağ faciəsinin, bütövlükdə Qarabağ probleminin kökləri var, tarixi var. Əjdər bir tarixçi kimi çox yaxşı bilir ki, hələ xilafət zamanında erməni patriklərinə Qarabağa girmək üçün xilafət necə məkrli torlar qurmuşdu, necə ikiüzlü siyasət yeritmişdi. "Din ayrı qardaş" adı ilə Albaniyanın mənafeyi erməni patriklərinin niyyətlərinə qurban verilmişdi. Hətta alban knyazı, əslən Cəbrayıl Ata ilə qohum olan Bakurun xəyanətlə ərəblər tərəfindən öldürülməsi əslində Bərdə knyazlığında erməni hiyləgərliyinin qələbəsi idi. Doğrudur, Əjdər Yunus Rzanın "Qarabağnamə"sində bu cür tarixi gedişlərə meydan yoxdur. O, əsasən, Qarabağla bağlı öz hisslərini, həyəcanlarını ifadə edir. Bir az da dəqiqləşdirsək, Qarabağın işğaldan azad olunması onu vəcdə gətirir. Və daha bir az konkretliyə varsaq, müharibənin başlanğıcındaca, Əjdər özünü səfərbər edir, ən başlıcası, özünü müharibənin içində görür.

Əjdər söz əhlidir. Hisslərini, duyğularını sözlə ifadə etməkdən başqa ayrı neyləyə bilər ki? Üstəlik, 70 illik ömrün 30 ilini Qarabağ həsrəti ilə yaşamış ola.

Mənim yaddaşıma gəlir. Əjdər görüşlərimizdə deyirdi ki, bu imkanlı vaxtlarımızda, yaşımızın qaynar çağında Qarabağ işğaldan azad olunsaydı, Xələfli düşmən caynağından çıxa bilsəydi, gedib orada özümə üzü Gündoğana tərəf bir ev tikərdim.

Əgər şair üzü Gündoğana tərəf ev tikmək arzusu ilə yaşayırsa, bundan müqəddəs nə ola bilər?

Sənətkarın "Qarabağnamə" poemasının quruluşu, strukturu, poemanın fikir baxımından inkişaf xətti bütün hallarda onun düşüncələrinə tabedir. Hətta poemanın elə girişindəcə məramını belə bildirir: "Nə bir ad güdürəm, nə bir mükafat, Bu olub ötəni yazmağım ilə. Tarixdən gizlənib qalan bir həyat, yadigar qoyacam gələn nəslə". Demək, şairin ən çox qorxduğu odur ki, gələcək nəsillər üçün xəcalətlə xatırlanacaq bir ad qoyub gedəcək. Amma əsərin yeni fəsilləri gəldikcə onun qüruru da üzə çıxır, onun varlığının səsi daha cəsarətlə eşidilir. O, xalqının vəkili timsalında görünür. Ordusunun tərənnümçüsü kimi görünür. Ən başlıcası, elə döyüşçülərlə bir sırada vuruşan bir silahdaş kimi görünür. Belə bir əqidə ilə, məramla silahlanmış söz adamı Qarabağdan başqa hansı məramı üstün bilə bilər. Onun mənəviyyatının hakimi yalnız yurddur, doğma torpaqdır. Düşmənə müraciət edərək deyir: "Bu tarix mənimdir, o tarix sənin, Acını, şirini böləcəyik biz. Açıb sirlərini qaranlıqların, Həqiqət yoluna gələcəyik biz". Doğru deyir, nə qədərki dumanlıqlar var, nə qədər toranlıqlar var, həqiqətlər axıracan aşkar görünməyəcək. Bu da bizim yaddaşımıza 90-cı illərin əvvəllərindəki mənəm-mənəmlik iddialarını gətirir. Ruhən, qəlbən doğmalıqla danışdığı üçün sözlərinin səmimiyyətini də qəbul etməyə bilmərik.

Bütün hallarda "Qarabağnamə" Əjdər Yunus Rza yaradıcılığının 70 illiyini dəyərli bir hesabatdır. Bu poemanın ayrı-ayrı hissələri ruhu qanadlandıran duyğularla süslənir, bəzən bu duyğular sönük ifadələrlə də üzə çıxır. Amma bütün hallarda "Qarabağnamə" taleyi, yəni əsərin taleyi spiralvari düşüncə hərəkəti ilə yüksələn xəttə doğru gedir.

"Qarabağnamə"də şairin orduya inamı var. Ali Baş Komandana inamı var, ən başlıcası, xalq birliyinə inamı var. O inanır ki, vətəni yalnız xalq birliyi bütövlüyə qovuşdura bilər. Poemadan daha bir parçanı oxucular üçün təəssürat baxımından vacib hesab edirəm:

*Yüz minlər axışıb çıxdı küçəyə,*
*Ali Komandandan silah istədi.*
*Yağı Qarabağdan qovulmalıdı,*
*Qeyrətin oyanan vaxtıdır dedi.*

*Döyüşə getməyə axın başladı,*
*Millət toparlanıb əmir gözlədi.*
*Qeyrət nə cinslədi, nə yaşladı,*
*Qeyrət içimizdən bizi səslədi.*

*Hamı gözləyirdi ya bu gün, sabah,*
*Azadlıq ordusu girər meydana.*
*Kimlərin kimliyi olacaq agah,*
*Arxa kim duracaq Azərbaycana...*

*Odur on səkkizdə olduğu kimi,*
*Türkiyə əlini qoydu çiynimə.*
*Uzaq Pakistanın arxa durmağı,*
*Gəlməzdi heç zaman, inan, eynimə.*

*Odlu silahdan da güclüdür, məncə,*
*Qardaşın mənəvi, maddi köməyi.*
*Çalınan zəfərin təməl daşıdır,*
*Qardaşın qardaşa "qorxma" deməyi.*

*Hər cürə köməyi, hər cür dayağı,*
*Hər döyüş günündə hiss elədik biz.*
*Dönüb ildırıma şimşəksayağı,*
*Düşmənin başına od ələdik biz.*

*Ali Baş Komandan verdi fərmanın,*
*Vətənim başladı səfərbərliyə.*
*Yalnız cəbhədəydi yolu zamanın,*
*Bəsdir, çəkilmişdik, bəsdir geriyə...*

Mətn bir qədər uzun görünə bilər, amma şairin yaşadığı hissləri təxmin etmək üçün bütöv vermək vacibdir.

"Qarabağnamə" həm də tarix kitabıdır. Bu "namə"lər hələ ərəb işğalı zamanından başlamışdı. Sonralar Sasanilər zamanında da davam etdi. Daha sonralar müxtəlif ara müharibələrində dırnaqarası müqavimətlə yaşarlıq aldı. Nadir şah zamanında düşmənə meydan verildi. Rusiya işğalı ilə erməni hiyləsi vəkalət aldı. Sonrakı zamanlarda da ikiüzlü dünya siyasəti Qarabağın taleyi ilə bağlı çirkin niyyətlərə daha da yol açdı.

Və nəhayət, bolşevizm zamanı Qarabağda muxtar vilayət statusu yaratmaqla günümüzün faciələrini tarixin faciəsinə çevirdi.

Əjdərin "Qarabağnamə" poeması təqribən belə bir ovqatla sona çatır: "Mənim ulu yurdum, ulu millətim,



Tarixi təzədən oxumalıyıq. Bəs edər çəkdiyim ağrım, zillətim, Bəs edər nə qədər yuxlamalıyıq". Bu ovqatın özü də gələcəyə xəbərdarlıqdır. O gələcəyə ki, ən xoş ünsiyyətlərin zamanında belə gərək bu günün həqiqətləri unudulmasın. Xocalı faciəsi unudulmasın, Şuşa taleyi unudulmasın, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər, Ağdam, Füzuli taleyi unudulmasın. Azərbaycanın ürəyində Xankəndi yarası udulmasın. Bir sözlə, bu günkü tibbi-cərrahi dillə desək, amputasiyanın yeganə çıxış yolu olduğunu da gərək yaddan çıxarmayaq. Erməni faşizmi bizim bədənimizin bədxassəli şişidir.

Tarix təkrar olunur - deyirlər. Əslində Əjdər Yunus Rza təkrar olunan tarixin elegiyasını yazıb. Yəni tarixən təkrar olunan Qarabağ faciələrindən sonuncunun taleyini yazıb. Zənnimcə, bu bir şair xəbərdarlığıdır. Özü də ciddi xəbərdarlıqdır.

Bundan sonra da "Qarabağnamə"lər yazılacaq. Bütün "Qarabağnamə"lərin hamısı Aleksandr Düma möhtəşəmliyi ilə cildlərə yığılsa belə yenə hər kəsin "Qarabağnamə"si öz adı və ünvanı ilə görüləcək. Şübhəsiz, bu "Qarabağnamə" cildlərinin içərisində də Əjdər Yunus Rzanın "Qarabağnamə"si onun öz adından, ünvanından xəbər verəcək. Bir sözlə, Əjdər Yunus Rza, yəni hər hansı bir şair öz səsi ilə, öz sözü ilə zaman-zaman xatırlanacaq, necə ki bir gənc tədqiqatçı ədəbi salnamədə öz imzasını axtaracaq. Ömrünün həyəcanlı çağlarında öz yazısını necə həyəcanla xatırlayacaqsa, şair də ömrünün 70 yaşında (170 yaşında) elə həmin yazdıqlarını qələmə aldığı zamanı xatırlayacaq. Yəni gələcək şairi unutmayacaq. Onu öz səsi ilə, öz sözü ilə xatırlayacaq.

Bir qara rəngli "Qarabağnamə" də Qarabağın işğaldan azad olunmasından sonra mən yazmışam. Həmin "Qarabağnamə"də əsasən elə Əjdərin də, mənim də doğulub-böyüdüyümüz Xələflinin yön tutmuşam, doğma yurdu qiblə bilmişəm. Xələflidən bu gün çoxlu alimlər var, şairlər var, söz əhli, qələm əhli var. Qəhrəman hərbçilər var. Şərəfli şəhidlər var. Bu qara rəngli "Qarabağnamə"də zəfərə qədərki acılıqlardan danışmışam və həmin poemada bir neçə bənddə də Əjdər Yunus Rzanın adı xatırlanır:

**Əli qələm tutan, dili söz tutan,**
**Hər şair bir daşın dərdini yazsın;**
**Həsrətlər içində yanıb köz tutan,**
**Viranə dərdlərin mərdini yazsın.**

**Əjdər Yunis Rza var, sözü ərköyün,**
**Gileyi yurdunda barışar, bitər;**
**Həsrətin sonunda vüsalın, toyun,**
**Sevinci ilhama qarışar, bitər.**

**Şair ilhamının dərdli yarpağı,**
**Misralara dönər, göz-göz danışar;**
**Əjdərin söz eşqi, qara torpağı,**
**Yandırar qəlbində köz-köz danışar.**

**Qarabağnamələr oxu kitabı,**
**Əjdərin ruhundan süzülüb gəlir;**
**Tanısın yurd odu... çoxu kitabı,**
**Bir şair qəlbindən düzülüb gəlir.**

**Yazımda, qəlbimdə sərhədləri yox,**
**Səsimdə, sözümdə bitə bilmirəm;**
**Onsuz da həsrətin dərdi, qəmi çox,**
**Ha yazam, sonuna yetə bilmirəm.**

Bu bəndlər bütöv poemadan bir parçadır. Bir qədər yarımçıq hisslər təsiri də bağışlaya bilər, amma hər halda həmin əsərdə Əjdərin adı onun poetik missiyasını bir daha yada salır.

"Həsrətlə vüsalın arasındayam" kitabında şairin dərdini, kədərini də görürük. Və onun yurd vüsalına qovuşmaq istəyini də, hətta bu istəyə yaxınlığını da hiss edirik. Bir sözlə, Əjdərin 70 yaşına hesabat kimi işıq üzü görən kitabı nikbin notlarla başa çatır.

Şair elə ona görə elin hisslərinin, duyğularının vəkilidir ki, o mənsub olduğu xalqın, bütövlükdə mənsub olduğu vətənin ruhunu qorusun.

Ümumiyyətlə, dərindən düşünəndə insan son nəticədə ruhdursa, elə ruhu qorumağı da daha üstün bilməyimiz şərtdir.

* * *

Əjdər Yunus Rza təbiət etibarı ilə gileyli insandır, gileyli şairdir. Dəyintili dostdur. Bəzən qəzəbini cilovlaya bilməyib qərəzə doğru da yerimək cəhdi var.

İnsanı tanımaq azdır, onu başa düşmək gərəkdir. Əjdər bütün qəlbi ilə insanlardan sevgi umur, amma unudur ki, gələcək insanlara qabaqcadan bütün qəlbinlə sevgini verə biləsən.

Şairlər bütün məqamlarda haqlıdırlar. Hətta zamanına görə, yerinə görə anına görə tam haqsız görünsələr belə.

***ƏLİ RZA XƏLƏFLİ***

***25.05.2022***